**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazma hüququnda*

**SEVİL SOLTAN qızı ƏLİYEVA**

# AZƏRBAYCANDA DÖVLƏT UŞAQ SİYASƏTİ: İNSTİTUSİONAL MEXANİZM VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

İxtisas: 5908.01– Siyasi nəzəriyyə

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rəna Rza qızı Mirzəzadə**
Fəlsəfə üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər:** **Adil İsgəndər oğlu Əsədov**
Fəlsəfə üzrə elmlər doktoru

**Hicran Kamran qızı Hüseynova**
Siyasi elmlər üzrə elmlər doktoru,
professor

**Aparıcı təşkilat:** AMEA Hüquq və İnsan Haqları İnstitutu

Müdafiə "_____" _____________ 2018-ci il tarixində saat ____ da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri, AZ 1143, H.Cavid prospekti, 115, AMEA-nın Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____"___________ 2018-ci il tarixində göndərilmişdir.

**Fəlsəfə İnstitutunun**
**nəzdindəki D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent:** **S.A.Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Uşaq problemləri müasir dövrdə bütün dünya dövlətlərinin, eləcə də vətəndaş cəmiyyəti institutlarının diqqət mərkəzində olan məsələlərdəndir. Qlobal maraqlar zəminində bu istiqamətdə yaranan problemlər çox qısa bir zamanda beynəlxalq mexanizmlərin tətbiqini zəruri edir. Bu baxımdan uşaq məsələsi ictimai və humanitar elmlərin – politologiya, pedaqogika, tarix, fəlsəfə, hüquq, psixologiya, sosiologiya, etnoqrafiya, beynəlxalq münasibətlər və s. tədqiqat obyekti olan çoxsahəli problemdir. Uşaqların hüquqları, onların müdafiəsi, təhsili, sağlamlığı, cəmiyyətə inteqrasiyası hər bir dövlətin prioritet vəzifələrindən biridir. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli sosial şəraitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması dövlət uşaq siyasətinin əsas istiqamətlərindən biridir. Müasir Azərbaycan cəmiyyətində uşaq məsələləri ilə bağlı ictimai təşəbbüslər bu gün də olduqca aktualdır. Uşaqların ailədə, bağçada, məktəbdə əhatə olunduqları mühit sürətlə yeniləşir. Eyni zamanda müasir cəmiyyətimizdə uşaqların informasiya bilikləri əvvəlki illərlə müqayisədə artır.

Dövlətimiz uşaq məsələləri ətrafında onlarla konvensiyaları ratifikasiya edərək, onların uşaq məsələlərinin həllinə yönələn mexanizmlərini siyasi cəhətdən təmin edir. Lakin, uşaqlarla bağlı problemlər bir tərəfdən həll olunursa da, digər tərəfdən qloballaşan dünyada yenileri ilə əvəz olunur. Uşaqlara qarşı münasibətin həm yerli, həm də beynəlxalq müstəvidə dəyişməsi tendensiyası uşaq siyasətinin institutsional mexanizmlərinin, prosesin nəzəri əsaslarının işlənilməsini, bu sahədə fənlərarası tədqiqatların davamlılığını tələb edir. Həmçinin, uşaqların müdafiə olunması məsələsi siyasi nöqteyi-nəzərdən əhəmiyyət kəsb etdiyi üçün bu sahədə işlənilən mövzuların siyasi elmin metodologiyası çərçivəsində, məhz siyasi elmin tədqiqat predmeti kimi geniş miqyasda araşdırılmasını aktuallaşdırır.

Tədqiqat işinin aktuallığını göstərən amillərdən biri də beynəlxalq təcrübədə dəyişən təlabatlar, maraqlar zəminində bu problemlərin həllində yeni elmi nəticələr əldə etməklə, qloballaşan dünyada bu nəticələrin sivil dünya qaydalarına uyğunluğunun təmin edilməsidir. Beləliklə, ilbəil uşaqlarla bağlı genişlənən siyasi-hüquqi "hərakat" təcrübəsi sözügedən sahənin elmi aktuallığını artırır.

Hal-hazırda uşaqlarla bağlı ictimai-siyasi təşəbbüslər dövlət siyasətinin həssas tərəflərindən birini təşkil edir. Uşaqlıq dövrünün bitməsi və gənclik dövrünün başlanması ilə insanın siyasi hadisə və proseslərdə yeri və rolu onun uşaqlıq dövründə əhatə olunduğu münasibətlərlə izah olunduğundan, həmin istiqamətdə dövlət uşaq siyasətinin xüsusiyyətlərinin öyrənilməsi, müasir institusional mexanizmlərinin tədqiqi siyasi elmin maraq dairəsinə daxil olmuşdur.

Təsadüfi deyil ki, dünya dövlətlərinin konstitusiyalarında da bu məsələyə xüsusi diqqət yetirilir. Eləcə də, Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin II bəndində: "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır"; "Ailə, uşaqlar və dövlət" adlanan 17-ci maddənin II bəndində: "uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir" müddəaları ilə təsbit edilir.[1]Müstəqillik əldə etdiyi ilk illərdən 1992-ci ildə Azərbaycan BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına və 2002-ci ildə Konvensiyanın daha iki əlavə protokoluna qoşulur.

Azərbaycanda uşaqlarla bağlı dövlət öhdəliklərinin artırılması zərurəti Ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Ulu öndər deyirdi: "Həyatımız nə qədər çətin, ağır olsa da, uşaqlara qayğı, diqqət heç vaxt azalmamalıdır. Çünki onlar bizim sabahımızdır".[2] Uşaq hüquqlarının müdafiəsi, onun qorunması məqsədilə Ulu öndər Heydər Əliyev 1998-ci il avqustun 24-də "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununu imzalayır. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanununda yazılır: "Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyənnaməsinə, uşaq hüquqlarına dair konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanda uşaq hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edən qanunvericilik aktıdır".[3]

Bu məsələ Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dövlət strategiyasında prioritet yerlərdən birini tutur. Bu özünü dövlət başçısının Uşaqların İkinci Ümumrespublika Forumunun iştirakçılarına müraciətində aydın şəkildə göstərir: "Uşaqlarımızın hərtərəfli şəxsiyyət və

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, Qanun nəşr, 2016, s. 8-10.
[2] Heydər Əliyev. Müstəqillik yolu. "Azərbaycan Universiteti"nəşriyyat, Bakı, 1997, s. 83.
[3] A.Quliyev, Hüquq ensiklopediyası. Bakı: Qanun, 2007, s.1015.

ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları, müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir”.[1] Bununla yanaşı Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 4, 5-ci bölmələri bilavasitə uşaq hüquqlarını təsbit edir.[2] Digər mühüm sənədlərdə: “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasında, Davamlı inkişaf konsepsiyasında və “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də gender, ailə, o cümlədən uşaq məsələləri də xüsusi yer almışdır. Həmçinin Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində (2016) uşaqların təhsilinin bütün pillələrində keyfiyyətin yüksəldilməsi məsələsi önə çəkilmişdir. Burada göstərilir ki, “istedadın erkən yaşdan aşkar olunması, inkişafı və dəstəklənməsi üzrə sistemin yaradılması Azərbaycanın dayanıqlı inkişafı üçün vacibdir”.[3] Təqdim edilən mövzunun öyrənilməsi bu sahənin institusional mexanizmlərinin fəaliyyətində elmi intellektual bazanın tətbiqini zəruri edir. Bunları nəzərə alaraq problemin siyasi baxımdan kompleks şəkildə Azərbaycan siyasətşünaslıq elmində öyrənilməsi, cəmiyyətdə bu istiqamətdə mövcud problemlərin həllinə elmi yenilik gətirməklə təkliflər irəli sürülməsi mühüm əhəmiyyət kəsb edir.

Ölkədə uşaq problemlərinin həlli istiqamətində Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Bu fondun fəaliyyətində uşaq problemləri yalnız milli zəmində deyil, həm də beynəlxalq müstəvidə öz həllini tapır. Bu istiqamətdə Heydər Əliyev Fondu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, milli qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar - BMT-nin Uşaq Fondu, BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı, BMT-nin İnkişaf Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı və s. qurumlar ilə uşaq problemlərinin həlli istiqamətində birgə əməkdaşlıq edir. Göründüyü kimi, Azərbaycanda uşaqların hərtərəfli inkişafı ilə bağlı sosial, siyasi, hüquqi zəmində kompleks proqramlar mövcuddur. Həmin proqramlardan çıxış edərək uşaq məsələsi ətrafında problemlərin elmi-metodoloji əsaslarla dövlət proqramları ilə qarşılıqlı uzlaşması mövzunun aktuallığını artırır.

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Uşaqların II Ümumrespublika Forumunun iştirakçılarına müraciəti. Bakı, 15 noyabr, 2011.

[2] Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Bakı: “Hüquq ədəbiyyatı” nəşriyyatı, 2006.

[3] “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı.

Bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, müasir Azərbaycan siyasətşünaslıq elmində dövlət uşaq siyasəti və uşaq hüquqlarının müdafiəsi sisteminin tədqiqi və təhlili xüsusən vacibdir.

**Problemin işlənmə dərəcəsi**. Tədqiq olunan mövzu dünya ictimai elmlərində müxtəlif istiqamətlərdə öyrənilmişdir. Bu zəmində uşaq problemi Qərbdə E.Key, N.Kantel, A.Biqlan, C.Vallerşteyn, S.Kelli, J.Piaje, M.Barret, A.Jackson, G.Davis, S.Hart, D.Elkind, J.Todres, Rusiyada A.Makarenko, V.Suxomlinski, N.Qrivennaya, A.Bejentsev, T.Titov, Y.Kolosov, A.Neçaeva, O.Starovoytov, Y.Qippenreyter və s. tərəfindən tədqiq olunmuşdur. Müəlliflər uşaq tərbiyəsi, uşaq pedaqoqikası, məktəb və ailə, uşaq psixologiyası, uşaq və hüquq, uşaq hərəkatı, uşaq təşkilatları problemlərini müxtəlif aspektdən tədqiq etmişlər.[1]

[1] E.Key, The centure of the child, University of Virginia, 2008, p.199; Cantel N. The History, Content and Impact of the Convention on the Rights of the Child. University of Ghent, Children Rights Center. Understanding Rights Center. Ghent, University press, 1998, p.137; A.Biglan. The Nurture Effect: How the Science of Human Behavior Can Improve Our Lives and Our World, New Harbinger Publications; 1 edition (March 1, 2015), p.83; I.Wallerstein, The End of the World as We Know it: Social Science for the Twenty-first Century, U of Minnesota Press, 1999, p.95; Susan S. Kelly, How Close We Come: A Novel of Women's Friendships, Grand Central Publishing, November 1, 1999, p.120-122; J. Piaget. The Psychology of the Child, October 18th 1972 by Basic Books, p.37; M.Barret. The Development of National İdentity in Childhood Adolesence. Cfui bord: University of Surrey, 2000, p.15; A.Jackson,, and G.Davis Turning Points 2000: Educating Adolecents in the 21st Century. New York: Teacher’s Colloge Press, 2000, p.41; S.Hart. Children’s rights in education: an historical perspective, American Psychologist, 1991, vol 20, p.56; D.Elkind Egocentrism in adolescence // Child Development. 1967. Vol. 38, № 4. p.1025-1026; Todres J. Emerging Limitations on the Rights ofthe Child the U.N.Convention on the Rights of the Child and Its Early Case Law,Columbia Human Rights Review, 1998, Vol. 30,p.164; Макаренко А. Собр. Соч. В 4-ч томах. Москва, Правда, 1987, с.310; В.А.Сухомлинский. Рождение гражданина. Москва: Молодая гвардия, 1971, с.14-15; Н.Гривенная Правовая защита детства: современная семья и ее проблемы. Защита детства: социальные, правовые и педагогические аспекты. Сб. материалов конференции. г.Ставрополь, 2016, с.137, Гвудпо; А.Беженцев Проблемы предупреждения беспризорности, бродяжничества, попрощайничества несовершеннолетних и пути их решения органами превенции правонарущений несовершеннолетних, Вестник Санкт-Петербургского университета МБД России №3 (47) 2010, с.47-48; Т.Титова. Оговорки к Международном договорам о правах человека на примере Конвенции о правах ребенка. МЖМП, 2003, №3, с.81-83; Ю.М.Колосов. Комментарий Конвенция о правах ребенка. // Советский журнал международного права, 1991, №2, с.84-85; А.Нечаева. Правовая охрана детства в СССР. Москва: Наука, 1987, с.14; О.Старовойтов. Становление и развитие международной защиты прав ребенка. Белорусский журнал международного права и международных отношений, 1998, №5, с.85; Ю.Б.Гиппенррейтер. Общаться с ребенком. Как? Москва: АСТ, Астрел, 2014, с.97;

Azərbaycan Respublikasında uşaq probleminin müxtəlif aspektləri və uşaq hüquqlarına dair çox saylı sənədlər nəşr olunmuşdur. Bunlardan "Uşaq hüquqları haqqında Konvensiya" (Bakı, 2009), "Azərbaycan Respublikası: Uşaqlar üçün yararlı dünya", (Bakı, 2007), "Ailə, qadın, uşaq" jurnalı (2010, №5) və s. kimi mənbələrin adlarını çəkmək olar.

Azərbaycanın I vitse-prezidenti Mehriban xanım Əliyevanın uşaq məsələləri ilə əlaqədar apardığı praktiki işlər, bu sahədə fəaliyyəti xüsusilə qeyd edilməlidir. Həmçinin bu istiqamətdə H.Hüseynova, İ.Məmmədzadə, Ə.Əlizadə, M.Dəmirçiyeva, R.Əzimova, R.Mirzəzadə, A.Əsədov, Q.Qeybullayev, N.Adilov, R.Qədirova, S.Həsənzadə və b. adlarını qeyd etmək olar.[1] Həmçinin bu istiqamətdə fəaliyyət göstərən vətəndaş cəmiyyəti qurumlarının məcmuələrinə, problemlə bağlı müxtəlif dissertasiya və avtoreferatlara müraciət olunmuşdur. Tədqiqatda eləcə də, Azərbaycanda dövlət uşaq siyasəti ətrafında politoloji və siyasi-sosioloji lüğətlərdən, ensiklopediyalardan, rəsmi dövlət və qeyri-dövlət qurumlarının sənədlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqatın obyektini Azərbaycanda dövlət uşaq siyasəti və uşaq hüquqlarının müdafiəsi sistemi, predmetini isə milli və beynəlxalq təcrübənin təhlili əsasında Azərbaycanda dövlət uşaq siyasətinin araşdırılmas təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi Azərbaycanda dövlət uşaq siyasətini hərtərəfli tədqiq etmək, ölkədə uşaq problemlərinin öyrənilməsi, aradan qaldırılması proseslərində milli və

---

[1] M.Əliyeva. "Uşaqlar bizim gələcəyimizdir, Azərbaycanının sabahıdır,onların problemlərinə biganə qalmayaq" // "Ailə, uşaq, qadın" jurnalı, 2010, №10, s.15; H.Hüseynova. IV Uşaq forumunda uşaqlara müraciət // "Ailə, qadın, uşaq" jurnalı, 2017, № 21, s. 9-10; İ.Məmməd-zadə. Cins, etika və siyasət problemləri // Genderşünaslıq. Beynəlxalq elmi-kütləvi jurnal, Bakı, SƏDA, 2000, № 1, s.24-25; Ə.Əlizadə, Ailə, Bakı, "Maarif" nəşriyyatı, 1989, s.191; M.Dəmirçiyeva. Azərbaycan Respublikasının ailə hüququ. Qanun. Bakı. 2008, s.241; Р.Азимова. Семья и нраветвенное воспитание подростка. (некоторые этика – писхологические проблемы) Баку: Азернешр, 1978, с. 16; R.Mirzəzadə, Gender və feminizm (fəlsəfi, tarixi və nəzəri-metodoloji aspekt). Bakı: Adiloğlu, 2002, s.26; Q.Qeybullayev Azərbaycanlılarda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri) II hissə. Bakı: Elm, 1994, s.264; N.Adilov, Müasir beynəlxalq hüquq və Azərbaycan Respublikası qanunvericiliyində uşaq hüquqlarının müdafiəsi; nəzəri və praktiki məsələlər, Bakı, Aypara-3, 2010, s. 95-96; A.Əsədov. Maskulinliyin və femininliyin sintez formaları arasında dövlət və ailə paralelləri, Genderşünaslıq, 2000, №2, s.20-21; Р.Кадырова, национальная идентичность азербайджанских детей и подростков. Социально-психологический анализ.Монография. Кавказ, Баку, 2007, с.78; S.Həsənzadə, Beynəlxalq və milli hüquqda uşaq hüquqları və onların müdafiəsi, "Təknur" 2011, s.14-15

beynəlxalq təcrübənin müqayisəli təhlili yolu ilə institutsional elmi-nəzəri bazanın yaradılması təşkil edir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr irəli sürülmüş və yerinə yetirilmişdir:

- Uşaq məsələsinin mahiyyətini, spesifik cəhətlərini siyasi-nəzəri kontekstdə öyrənərək problemə tarixi-siyasi baxışları araşdırmaq;
- Uşaqların hərtərəfli inkişafına təsir edən milli və beynəlxalq qanunvericiliyin birgə tətbiqinin səmərəliliyini nəzərdən keçirmək;
- Uşaq məsələləri ətrafında dövlət proqramlarının yerinə yetirilməsi ardıcıllığının elmi-konseptual əhəmiyyətini göstərmək;
- Müstəqil Azərbaycanda uşaq strategiyası və institutsional qurumların milli inkişaf siyasəti çərçivəsində fəaliyyət istiqamətlərini öyrənmək, uşaq hüquqlarının icra, qanunverici və hüquqi mexanizmlərini şərh etmək, təklif və tövsiyələr vermək.

**Tədqiqatın elmi yeniliyi** onun məqsəd və vəzifələri ilə müəyyən olunur. Belə ki, Azərbaycan milli siyasətşünaslıq elmində dövlət uşaq siyasəti və uşaq hüquqlarının müdafiə sistemi milli və beynəlxalq təcrübə əsasında müqayisəli təhlil olunur. Tədqiq edilən mövzunun elmi yeniliyi həm də Azərbaycan siyasətşünaslıq elmində problemin ilk dəfə siyasi aspektdə təhlili, problemə siyasi cəhətdən hərtərəfli və sistemli yanaşılması və araşdırılması ilə şərtlənmişdir. Tədqiqatın elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapır:

- Uşaq məsələsinin mahiyyəti, spesifik cəhətləri elmi-praktiki, siyasi-nəzəri baxımdan öyrənilmişdir;
- Uşaq problemlərinin həlli ətrafında dövlət siyasətinin yerinə yetirilməsinin elmi-konseptual əsasları tədqiq edilmişdir;
- Ölkədə uşaqlarla bağlı ictimai-iqtisadi, sosial-siyasi problemlərin həlli mexanizmləri ilk dəfə olaraq siyasi-nəzəri aspektdə araşdırılaraq milli inkişaf modelinə dair təkliflər irəli sürülmüşdür.
- Azərbaycanda uşaq strategiyası və institusional qurumların milli inkişaf siyasəti çərçivəsində fəaliyyət istiqamətləri öyrənilmiş, uşaq hüquqlarının icra, qanunverici və hüquqi mexanizmləri şərh edilmiş, beynəlxalq təcrübənin müqayisəli təhlili nəzərdən keçirilmişdir.

Beləliklə, tədqiqatda dövlət uşaq siyasəti, uşaq məsələsi haqqında bitkin və ümumiləşdirilmiş məlumat verilir, yeni elmi-nəzəri təklif və tövsiyələr verilmişdir. Azərbaycan siyasətşünaslıq elmində bu problemin müxtəlif aspektləri siyasi baxımdan geniş öyrənilərək ona elmi-nəzəri mətndə yanaşılır. Həmçinin, milli və beynəlxalq təcrübə əsasında dövlət uşaq siyasəti və uşaq hüquqlarının müdafiəsi sisteminin kateqorial aparatı açıqlanır.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri əsaslarını dövlət uşaq siyasətinin həyata keçirilməsi istiqamətində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq qərar və sərəncamları, uşaq məsələlərinin həllinə yönəlmiş milli və beynəlxalq qanunvericilik bazası, bu istiqamətdə yazılan elmi əsərlər, metodoloji əsaslarını isə analiz, sintez, induksiya və deduksiya kimi ümummәntiqi metodlar, həmçinin institusional təhlil, sistemli yanaşma, müqayisəli təhlil, tarixi metodlar, kontent-analiz və ekspert qiymətləndirməsi kimi siyasi analizin müasir metodları təşkil edir.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti** onun məqsəd və vəzifələri, eləcə də elmi yeniliyi ilə sıx surətdə əlaqədardır. Dissertasiyanın materialları və ümumi nəticələri politoloqlar, sosioloqlar, filosoflar, hüquqşünaslar, pedaqoqlar, psixoloqlar və digər humanitar elm sahələrindəki mühazirəçilərin, həmçinin demokratik təsisatlar – siyasi qurum və QHT-lərin praktiki fəaliyyətində, eləcə də tədris sistemində faydalı ola bilər.

Dissertasiya işinin qarşıya qoyduğu məsələlər və onların araşdırılması kontekstində əldə edilən nəticələr politologiya, sosiologiya, sosial fəlsəfə, sosial psixologiya, pedaqogika, hüquqşünaslıq ixtisasları üzrə elmi-tədqiqat işlərində, fənlərin tədrisində, metodoloji seminarlarda istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işinin məzmunu, əsas müddəaları, əldə olunan nəticələri müəllifin ölkə daxilindəki və xaricindəki elmi nəşrlərdə çap edilən məqalələrində, iştirak və çıxış etdiyi respublika və beynəlxalq səviyyəli elmi konfransların materiallarında öz əksini tapmışdır. Dissertasiya işi AMEA Fəlsəfə İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu**. Tədqiqat işi giriş, üç fəsil (altı yarımfəsil), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metdoloji əsasları, elmi-praktiki əhəmiyyəti öyrənilmişdir.

I Fəsil **"Uşaq məsələsinin formalaşma istiqamətləri: siyasi baxış"** adlanır. Bu fəslin **"Uşaq problemi və hüquqlarına tarixi-siyasi nəzər"** adlanan birinci yarımfəslində ilk olaraq uşaq anlayışı, onun yaş məsələsi, uşaqlığın inkişaf dövrlərinə aydınlıq gətirilmiş, uşaq hüquqlarının forma-

laşma prosesi araşdırılır. Cəmiyyətdə uşaqların yeri və rolunun müəyyənləşdirilməsində müxtəlif alimlərin müxtəlif aspektlərdə yanaşmaları təhlil edilmişdir.

Bu yarımfəsildə qeyd olunur ki, hələ ilk dövrlərdə uşağa qarşı sevgi bağlılığı hələ tam dərk edilmirdi. Bir çox ölkələrdə valideyn tərəfindən uşaq satıla və ya öldürülə bilərdi. Ailə və uşaq problemini tarixi nöqteyi nəzərdən tədqiq edən alim F.Aries "uşaqlıq" anlayışına münasibətin zamanla dəyişdiyini və bunun daha çox dövrdən, böyüklərlə olan münasibətdən və mədəniyyətdən asılı olduğunu göstərmişdir.[1] Bununla, uşaqlıq dövrünün həyatın bir mərhələsi olaraq zaman və məkan daxilində inkişaf etdiyi qənaətinə gəlmək olar.

Uşaqlarla bağlı məsələlər Azərbaycanda da birmənalı olmamışdır. Təhsil baxımından dini-mədrəsə təhsili alan Azərbaycan uşaqları XIX əsrin ikinci yarısında Bakıda kapitalizmin inkişaf etdiyi bir dövrdə feodal patriarxal adətlərin təsirləri nəticəsində dünyəvi təhsil almaq imkanlarından məhrum idi.

Uşaq hüquqlarının formalaşma prosesi, uşaqlara olan münasibətlər və bu münasibətlərin müsbət istiqamətdə dəyişməsi tarixən, ictimai-siyasi proseslər nəticəsində baş vermişdir. Zaman-zaman bu münasibətlər dəyişərək uşaqların gələcək üçün hazırlanmasının vacibliyini ortaya çıxardı. Müxtəlif aspektlərdə uşaq məsələləri tədqiq olunmağa başlandı və uşaq hüquqlarının formalaşma prosesinə ətrafında qlobal konvensiyaların əhəmiyyəti genişləndi. Tarixi sınaqlardan keçdikdən sonra dövlətlər sağlam cəmiyyət üçün sağlam vətəndaş yetişdirməyi vacib bildilər və bununla da uşaqlıq dövrü insan inkişafının əsas mərhələsini təşkil etməklə dövlət siyasətinin mühüm tərəflərini təşkil etməyə başladı.

Yeni demokratik qanunlarla isə uşaqların beynəlxalq müdafiə hüququ formalaşdı. Uşaqlar üçün mülki, siyasi, sosial, iqtisadi, mədəni, hüquq və azadlıqların bölünməzliyi və ayrılmazlığı prinsipləri reallaşdı.

Birinci fəslin **"Uşağın formalaşma və sosiallaşma prosesində rol oynayan faktorlar"** adlı ikinci yarımfəslində qloballaşan dünyada yeni münasibətlərə adaptasiya, müasirlik, yüksək bilikləri özündə ehtiva edən bir insanın formalaşması yolları diqqətə yetirilir. Gender streotipləri, ailə, məktəb, KİV, İKT, ətraf mühit, cəmiyyətin uşaqlara güclü təsir etməsi və onların sosiallaşma proseslərində əhəmiyyətli təsirindən bəhs edilir. Belə ki, gender stereotipləri uşaqların şüuruna təsir edir. Bu isə onların həyati

---

[1] F.Aries Centuries of Childhood: A Social History of Family Life. Translated from the French by Robert Baldick, Vintage (July 12, 1965), p.135

uğurlarında əks olunur, oğlan və qızların nisbi statusuna toxunur, onların təkcə müxtəlif rollarını deyil, həm də sosial strukturlarını balanslaşdırır. Bu yarımfəsildə göstərilir ki, gender rolunun başa düşülməsi uşaqlıq dövründən yaranmağa başlayır ki, bu da əsasən ailə, bağça, məktəb, ətraf mühit və cəmiyyət tərəfindən təsirlənir.

Uşağa təsir edən sosial mühitdə ailə xüsusi yer tutur. Uşağın gələcək taleyi, həyatda və cəmiyyətdə tutduğu yeri, insanlarla qarşılıqlı münasibətlərinin formalaşması ailədən asılıdır. Ailə təsiri sosiallaşmanın ünsürüdür. Sosiallaşma prosesində uşaq müxtəlif fərqli şəraitlə üzləşir, baş verən dəyişikliklərə alışmağa çalışır və sosiallaşmaya məruz qalır, uşaqda mənlik formalaşır. Uşağın gələcək insan kimi cəmiyyətə daxil olması üçün bütün mənəvi əsas məhz ailədə yaranır. Ətraf mühit isə uşağı gələcək insan kimi böyüdən vacib şərtdir. Bunun üçün ətraf mühit ciddi, məqsədyönlü, fasiləsiz tərbiyə ilə uşağı mütərəqqi, müsbət istiqamətə yönəltməyi bacarmalıdır. V.Suxomlinski uşaqlardakı əxlaq pozğunluqları, qanun pozuntusu və cinayət kimi böhranlı halları ciddi təhlükəli pisliyin təzahürü formaları hesab edir. Uşaqlıq illərində yüngül və əziyyətsiz tərbiyə ola bilməz. Uşaqlıqda insanın əsası qoyulur, cilalamaq isə valideynlərin, pedaqoqların, ictimaiyyətin borcudur.[1]

Uşaqlara təsir edən ən ciddi amillərdən biri məktəbdir. Ailə ilə məktəbin birgə fəaliyyəti uşaqların gələcək inkişafında həlledici rol oynayır, bu sahədə valideynlərin, müəllimlərin səyləri birləşir. Məktəb mühitinin, təlim-tərbiyənin təsiri altında uşaqlarda müsbət keyfiyyətlər formalaşır. "Bu dövrdə uşaqlarda zehni, əxlaqi və estetik hisslər də özünəməxsus şəkildə inkişaf edir. Onlarda "təlim və tərbiyənin təsiri altında xarakterin intizamlılıq, dözümlülük, təkidlik kimi iradi keyfiyyətləri formalaşmağa başlayır, əməksevərlik, səliqəlilik, müəllimin qiymətləndirilməsi nəticəsində özünüqiymətləndirmə formalaşmağa başlayır. Təhsilə müasir informasion yanaşma uşaqların fundamental hazırlığını təmin edir. Təhsil sahəsindəki böhran onun bəşəri dəyərlərdən uzaqlaşması ilə əlaqədardır. Bu böhrandan xilas olmağın yeganə yolu təhsildə humanist paradiqmaların təsdiqidir.

Uşaqların formalaşmasında rol oynayan faktorlardan biri də KİV-dir. KİV və uşaq hüquqlarından danışarkən əsasən uşaq hüquqları uğrunda mübarizə, uşaqlara qarşı diskriminasiya, uşaqlar və ailə, uşaq əməyi, uşaqlar və silahlı münaqişə, uşaqların sağlamlığına qayğı, təhsil, uşaqların mənsubiyyəti, onların fikir və sivil hüquqları, uşaqlar və ictimai qayğı, uşaqlar

---

[1] В.А.Сухомлинский. Рождение гражданина. Москва: Молодая гвардия, 1971, с 12-13

və KİV, uşaqlar və cinayət, cinsi sui-istifadə və uşaqların istismarı, uşaq hüquqlarının qorunması sahəsində cəmiyyətin və dövlətin vəzifələri və s. problemlər işıqlandırılır. Hər bir dövlətin KİV siyasətində əsas məqsəd uşaqlar üzərində böyüklərin diqqət və məsuliyyətinin artırılmasına nail olmaq, KİV peşəkarlarının uşaq hüquqlarının qorunması sahəsində öz təbliğat və təşviqatını gücləndirməkdir.

Dissertasiyanın ikinci fəsli **"Dünyada uşaqları müdafiə sistemi: milli və beynəlxalq təcrübənin siyasi təhlili"** adlanır. Bu fəslin **"Beynəlxalq hüquqi aktlarda uşaq hüquqlarının qorunması mexanizmləri"** adlı birinci yarımfəslində araşdırılır uşaq hüquqları – uşaqlara aid insan hüquqlarıdır. Bu hüquqların xüsusi kateqoriyaya ayrılması, hər şeydən əvvəl, uşaq baxımsızlığından, uşaq nəzarətsizliyindən və uşaqların sosial müdafiəsi ilə əlaqədar digər problemlərdən irəli gəlir. Uşaqlar yaşına, ailədə, təhsil və iş yerlərində, eləcə də bütövlükdə cəmiyyətdəki vəziyyətlərinə görə spesifik hüquqlara malikdir. Məhz dövlətlərin milli və beynəlxalq öhdəlikləri də bu spesifik hüquqların daha ədalətli və səmərəli qorunması istəklərinə görə hesablanmalıır.

Bu yarımfəsildə qeyd olunur ki, insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarının qorunması mexanizminin təşəkkülü demək olar ki, XIX əsrin sonları, XX əsrin əvvəllərindən başlamışdır. Bu istiqamətdə vacib beynəlxalq əhəmiyyətli sənəd − Uşaq Hüquqları haqqında Bəyannamədir. Bəyannamə uşaq hüquqlarının müdafiəsi sahəsində prinsiplər müəyyən etdi, uşaqların hüquq və azadlıqlarını təmin etmək məqsədi ilə valideynləri, insanları, könüllü təşkilatları, yerli hakimiyyət orqanlarını və milli hökümətləri bu hüquqları tanımağa çağırdı. Burada göstərilir ki, uşaq bu Bəyannamədə göstərilən bütün hüquqlara malik olmalıdır. Eyni zamanda, qeyd edilir ki, bu hüquqlar bir fərq, yaxud ayrı-seçkilik qoyulmadan, istisnasız olaraq, bütün uşaqlar üçün qəbul edilməlidir və uşaq sosial müdafiə ilə təmin olunmalı, bu sahədə qanunlar qəbul edilərkən uşağın mənafeyi ən yaxşı şəkildə müdafiə olunmalıdır. İlk dəfə olaraq uşaqların bu və ya digər hüquqlara malik olması, bu hüquqların müdafiəsi spesifik beynəlxalq normalar kimi göstərildi: Uşaqların sosial müdafiəsinin təmin olunması; ad və vətəndaşlıq hüququna malik olması; sosial təminat qaydalarından istifadə etməsi; təhsil, qayğı ilə təmin edilməsi; uşağın tam ahəngdar inkişaf etməsi; uşağın heç olmasa ibtidai məktəblərdə pulsuz və icbari təhsil almaq hüququ; uşağa bütün şəraitlərdə ilk yardım edilməsi; uşağın laqeyd münasibət, qəddarlıq və istismarın bütün formalarından müdafiə edilməsi; uşağın irqi, dini, digər ayrı-seçkilik formasını təbliğ edə biləcək praktikadan qorunması diqqətə çatdırılmışdır.

XX əsr uşaq hüquqlarının beynəlxalq müdafiəsi mexanizmi yaradılmasında əsas mərhələ oldu. Həmin dövrdən müxtəlif uşaq təskilatları yarandı (uşaqlar üzərində Beynəlxalq qəyyumluq Assosiasiyası, Gənc Qızların Hüquqlarının Müdafiəsi üzrə Beynəlxalq Şura, Tələbələrin Beynəlxalq cəmiyyətləri, Həbs Edilmiş Yetkinlik Yaşına çatmayanların hüquqlarının Müdafiəsi Təşkilatı və s.). Məhz XX əsrdə Uşaq Hüquqları haqqında Konvensiya qəbul olundu. 1989-cu ildə qəbul edilmiş bu Konvensiya onun iştirakçıları olan dövlətlərin əməl etməli olduqları universal beynəlxalq sənəd oldu. Konvensiya insan hüquqları sahəsində yeganə beynəlxalq sənəddir ki, onun müddəaları şəxsiyyətin həm mülki və siyasi hüquqlarını, həm də sosial-iqtisadi hüquqlar kompleksini əhatə edir. Beləliklə, S.Hartın göstərdiyi kimi "uşaq hüquqlarının müdafiəsi iki mühüm istiqamətdə inkişaf etmişdir: bir tərəfdən, onun insan kimi hüquqlara bilavasitə aid olmasıdır; digər tərəfdən sosial cəhətdən zəif və tam fəaliyyət qabiliyyəti olmayan şəxslər kimi, valideynlər və ya onu əvəz edən şəxslər, cəmiyyət, dövlət tərəfindən dəstəklənməsidir. Bu isə onların yeni statusunun meydana çıxmasına səbəb olmuşdur".[1] Beləliklə, uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq qanunvericilik formalaşdı. XX əsrin 90-cı illərində Konvensiyanın əsas prinsip və müddəalarını müdafiə etmək üçün konfranslar, görüşlər keçirilmiş, ölkələrin bu istiqamətdə planları, fakultativ praktikaları qəbul edilmişdir. Qeyd edək ki, beynəlxalq aktlarda diqqət mərkəzində olan məsələlərə - uşaq alverinə, uşaq fahişəliyinə uşaq pornoqrafiyaları, uşaq seks turizminə qarşı tədbirlər görülməsi; uşaqlara qarşı bu əməlləri törədənlərin aşkar edilib cəzalandırılması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsi; uşaqların silahlı münaqişələrə cəlb edilməsinə qarşı mübarizə aparılması; uşaqların milli və beynəlxalq səviyyədə tərbiyə verilərkən və övladlığa götürülərkən müdaxiləsinə və əmin-amanlığa dair sosial və hüquqi prinsiplərin qəbul olunması; yetkinlik yaşına çatmayanlar barədə ədalət mühakiməsinin icrasına aid minimal standart qaydalarının müəyyən edilməsini aid etmək olar.

Bu yarımfəsildə uşaq hüquqlarının müdafiəsinin beynəlxalq nəzarət sistemi də araşdırılmışdır. Bu sistemdə universal beynəlxalq təşkilat kimi BMT əsas yer tutur. BMT Uşaq Hüquqları haqqında Konvensiyanın həyata keçirilməsi üçün onu dövlətlərin milli fəaliyyət planlarına daxil edilməsini tövsiyyə etdi. Bu beynəlxalq təşkilat göstərdi ki, uşağa münasibətdə ilk

[1] S.Hart. Children's rights in education: an historical perspective, American Psychologist, 1991, vol 20, p.56.

növbədə uşaqların maraqlarının yüksək təmininə xüsusi diqqət yetirilməli, eyni zamanda, uşaq düşüncəsinə diqqətlə yanaşılmalıdır. Təşkilata üzvlük qəbul olunan qərarların yerinə yetirilməsini şərtləndirdi. Regional təşkilatlardan Avropa Şurası, Avropa Məhkəməsi, eyni zamanda BMT-nin ixtisaslaşdırılmış təşkilatları və QHT-lər uşaq hüquqlarının müdafiəsi mexanizmində mühüm rol oynayır. Məhz bu qurumlarla əməkdaşlıq ayrı-ayrı dövlətlərin uşaq siyasətinin tərkib hissəsinə çevrildi. Həmçinin tədqiqat işində göstərilir ki, uşaq probleminin həlli yalnız beynəlxalq normaları nəzərə almaqla deyil, həm də hər dövlətin xüsusi proqramları ilə diqqətdə saxlanılmalıdır.

İkinci fəslin **"Milli qanunvericilikdə uşaq hüquqları: müqayisəli yanaşma"** adlanan ikinci yarımfəslində araşdırılan mövzunun milli qanunvericiliklərdə necə əks olunması məsələlərinə aydınlıq gətirilir. Qeyd edilir ki, uşaq hüquqları beynəlxalq hüquqi tənzimləmə ilə yanaşı, regional və milli qanunvericiliklə də müdafiə olunur. Dünyanın aparıcı inkişaf etmiş ölkələri və beynəlxalq qurumlar uşaq hüquqlarının müdafiəsini demokratiyanın əsas komponenti kimi bütün ölkələrə təlqin edirlər. Bu yarımfəsildə müqayisəli formada araşdırılır ki, uşaq hüquqlarının müdafiəsində beynəlxalq və yerli müdafiə mexanizmlərinin birgə fəaliyyət göstərməsi onun səmərəliliyini artıran əsas amillərdəndir.

Bu yarımfəsildə qeyd olunur ki, 1989-cu ildə BMT uşaq hüquqlarına dair Konvensiyanı qəbul etdikdən sonra dünyanın bir çox ölkələrində uşaq ombudsmanları meydana gəldi. Uşaqlar əhalinin xüsusi bir kateqoriyası kimi öz hüquqlarını müstəqil müdafiə edə bilmədiklərinə görə böyüklərin və təşkilatçıların xüsusi diqqət və qayğısına möhtacdırlar. Dövlətlərin əksəriyyəti də uşaq hüquqlarına dair müvəkkillik kimi milli orqanlar yaratdılar. Dünyanın 60-dan çox ölkəsində uşaqların hüquqlarını müdafiə edən milli təşkilatlar – uşaqların hüquqları üzrə ombudsmanlar fəaliyyət göstərir. Uşaq hüquqları ombudsmanlar – uşaqların müdafiəsinin həyata keçirmək səlahiyyətinə malik onların hüquqlarının gerçəkləşməsinin, BMT-nin uşaq hüquqları haqqında əsas müddəaları ilə mili qanunvericiliyin uyğunluğuna görə nəzarəti həyata keçirən hüquqi xidmət təşkilatı və ombudsman ilə ona başçılıq edən məmurdur. Uşaq hüquqları üzrə ombudsmanlar uşaqların maraqlarını ifadə edərək uşaqları zorakılıq, istismardan və özbaşınalıqdan xilas etmək üçün tədbirlər görür. Uşaq hüquqları üzrə ombudsmanlar xüsusi təsisat kimi dünyanın 60-dan artıq ölkəsində, o cümlədən 28 Avropa ölkəsində mövcuddur. Uşaqların hüquqları üzrə ombudsmanların əsas funksiyaları: uşağın hüquq və azadlıqlarının qanuni maraqlarını təmin etməkdən; uşaq hüquqlarının müdafiəsinin mövcud forma

və vasitələrini uşaqların qanuni maraqları və hüquqlarını qorumağa səlahiyyətləri olan dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə birlikdə inkişaf etdirməkdən; uşağın pozulmuş hüquqlarının bərpasına hərtərəfli yardım etməkdən; uşağın hüquqlarına riayət edilməsi işlərinə dair vəziyyəti təhlil etməkdən və qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaqdan; əhalini və uşaqları uşaqların hüquqları və vəziyyəti barədə məlumatlandırmaqdan ibarətdir. Uşaq hüquqları üzrə müvəkkiliyin fəaliyyət göstərməsi uşaq hüquqlarının qorunması üçün daha geniş imkanlar aça bilər. Azərbaycan hökümətinin uşaq məsələlərinə dair beynəlxalq konvensiyaların ratifikasiyası istiqamətində işləri və ölkə daxilində uşaqlarla bağlı çoxsahəli proqramları həyata keçirməsi uşaq obmudsmanının yaradılması ideyasını zəruri edir.

Bu gün ayrı-ayrı dövlətlərin milli qanunvericilik sistemi uşaq hüquqlarına dair beynəlxalq hüquqa uyğun olaraq aşağıdakı ümumi prinsipləri nəzərdə tutur: uşaqların həyat və sağlam yaşama hüququ; öz fərdiliyini, vətəndaşlığını qoruyub saxlamaq hüququ; azad şəxsiyyət, azad fikir, vicdanlı və dini etiqad hüququ; zorakılığın bütün növlərindən müdafiə olunmaq hüququ; fiziki, əqli, ruhi-mənəvi inkişaf hüququ; sosial təminat, sosial sığortalanmaq hüququ; təhsil, ana dilindən istifadə, öz dininə etiqad etmək hüququ; şəxsi ləyaqətinin qorunub-saxlanması hüququ.

Bu yarımfəsildə göstərilir ki, bütövlükdə ABŞ, İngiltərə, Almaniya, Fransa, Belçika, Hollandiya, İsveç, İsveçrə kimi inkişaf etmiş ölkələrin uşaq hüquqlarının müdafiəsi təşkilatlarını birləşdirən ümumi bir konsepsiya mövcuddur ki, bura aiddir: uşaq və yeniyetmələrin inkişafında böyük mədəni fərqlər vardır; uşaq və yeniyetmələr yaşlılardan fərqli olan xüsusi ehtiyaclara malikdirlər; gender məsələlərinə böyük diqqət yetirilməlidir; proqramların planlaşdırılması prosesinə uşaq hüquqları ilə yanaşı uşaqların inkişafı perspektivini də əlavə etmək vacibdir; hərbi münaqişələr və məcburi miqrasiya uşaq inkişafına mənfi təsir göstərən böyük risk faktorudur; yardımçı şəbəkələrin yaradılması və gücləndirilməsi uşaq və onların ailələrinə böhranlı və təhlükəli hadisələr zamanı mübarizə aparmağa imkan yaradan ən effektiv metodlardır; münaqişə, miqrasiya və digər ekstremal hadisələr bir çox böhranlı təhlükələr törədir ki, bunlar da hüquq pozuntusu və qorxu hissi, ayrı-seçkilik, istismar və zorakılıq, hərbi qüvvələrə qoşulma kimi mənfi təcrübənin toplanmasına gətirib çıxarır. Bu təhlükələrin təkrar olunması və davam etməsinin qarşısını almaq üçün yeni müdafiəedici tədbirlərin görülməsi qarşıya məqsəd qoyulmuşdur.

Tədqiqat işində Almaniya, ABŞ, Fransa, B. Britaniya, Hollandiya və s. timasalında uşaq hüquqları sahəsində nümunələr verilmiş, sivil ölkələrin

uşaq hüquqları sahəsindəki təcrübələri təhlil edilmişdir və nəticədə lazım və mümkün ola biləcək müvafiq təcrübələrin Azərbaycan reallığında tətbiqi barədə elmi-nəzəri fikirlər irəli sürülmüşdür.

Dissertasiyanın üçüncü fəsli **"Müasir Azərbaycanda uşaq strategiyası və institusional qurumlar"** adlanır. Bu fəslin **"Azərbaycanda uşaq məsələsi və demokratik təsisatlar"** adlanan birinci yarımfəslində ölkədə mövcud uşaq problemləri və onlarla mübarizə yolları göstərilmişdir. Uşaqların cəmiyyətə inteqrasiyasını təşkil etmək üçün alternativ qayğı müəssisələrinin və sığınacaqların kifayət qədər olmamasını bura aid etmək olar. Həssas qrupdan olan uşaq və ailələrlə işin təşkili üçün sosial xidmətlərin, uşaq standartlarının yaradılması və ictimai yönümlü alternativ qayğı xidmətlərinin yaradılmasına ehtiyac duyulur.

Bu yarımfəsildə qeyd olunur ki, Azərbaycanda uşaq ölümü səviyyəsinin azaldılmasında əldə edilmiş əhəmiyyətli nailiyyətlərə baxmayaraq, bu vacib göstəricilər üzrə ölkə hələ də dünya dövlətləri ilə fərqlənir. Prenatal qulluq sistemində islahat aparılması və onun beynəlxalq standartlar səviyyəsində yeni doğulmuşlara qulluq üzrə yeni qulluq təcrübələrini tətbiq etmək, erkən uşaqlıq dövrünün inkişafına xüsusi diqqət yetirmək, bu sahədə uşaq və ana qidalanması, yeni doğulmuşlara yardım üzrə və s. kimi proqramların geniş tətbiqinin daha məqsədəuyğun olduğu qeyd edilmişdir.

Dissertasiyada küçə uşaqlarına dair məsələyə də nəzər salınmışdır. Küçə uşaqları təhsildən yayınmaya və sui-istifadəyə məruz qalan əsas risk qruplarındandır. Həm dövlət, həm də qeyri dövlət təşkilatları bu uşaqlara kömək etmək üçün aktiv fəaliyyət göstərirlər. Bununla belə, küçə uşaqlarının sayı və onların küçələrdə yaşama səbəblərinə dair məlumatların əldə edilməsi lazımi səviyyədə olmaması müdaxilələrin hər zaman effektiv nəticə verməməsinə səbəb olur.

Tədqiqat işində erkən nikah da bu problemlər əhatəsində göstərilmişdir. Azyaşlı qızlar üçün erkən nikahların mənfi nəticələrinə aşağıdakılar daxildir: erkən hamiləliyin həm ana, həm də uşağın səhhətində ciddi problemlərin yaranması, orta və ali təhsilini davam etdirmək üçün qızların sahib olduqları imkanların azalması, ailələrindən və qohumlarından erkən yaşda ayrı salınan azyaşlı qızların psixoloji stresinin artması kimi mənfi nəticələrə gətirib çıxarır. Erkən evliliyin mənfi nəticələri barədə istər könüllü, istərsə də valideynlərin məcburiyyəti ilə ailə quran qızların məlumatlılığının az olması bu barədə maarifləndirici tədbirlərin görülməsini zəruri edir. Digər səbəb isə yerli səviyyədə uşaqların müdafiəsi üzrə müvafiq təlimlər aparan kadrların kifayət qədər olmamasıdır. Ailə qurmaq üçün təzyiqə məruz

qalan, eləcə də artıq ailə qurmuş və bu evliliyin mənfi nəticələrini yaşayan azyaşlı qızlar məhz bu kadrlara və məktəb psixoloqlarına müraciət etməlidir.

Cəbhə bölgələrində atəşkəsin tez-tez pozulması uşaqların və ailələrin psixoloji və sosial-iqtisadi vəziyyətinə ağır təsir göstərir. Məhz bu səbəbdən respublikanın bu regionlarında xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı, digər bölgələrə nisbətən yüksəkdir.

Bu yarımfəsildə Azərbaycanın UNİCEF (BMT-in Uşaq Fondu), UNFPA (Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu), WHP (Dünya Qida Proqramı), CİE (Təhsildə İnnovasiya Mərkəzi) və s. ilə əməkdaşlığı çərçivəsində uşaq problemlərinə dair layihələr və nəticələri, həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Ombudsman qurumunun fəaliyyətinə əsasən dövlət siyasəti təhlil olunur. Azərbaycanda uşaq problemlərinin həllilə məşğul olan bir çox milli demokratik təsisatların gördükləri işlər qiymətləndirilir.

Tədqiqatda həmçinin göstərilir ki, Heydər Əliyev Fondunun ölkədə uşaq problemlərinin həlli istiqamətində ardıcıl və səmərəli fəaliyyəti yerli və beynəlxalq səviyyədə uşaq hüquqları müdafiəsi sistemini möhkəmləndirmiş, bu məsələlər ətrafında konseptual fəaliyyət planının formalaşmasını sürətləndirmişdir. Beləliklə, uşaq məsələsi ətrafında ölkəmizdə aparılan sistemli və ardıcıl dövlət siyasəti bu istiqamətdə strategiyanın inkişafına zəmin yaratmışdır.

Uşaq hüquqları insan hüquqlarının tərkib hissəsi olsa da, uşaq hüquqlarının spesifikliyi ona fərqli humanist yanaşma tələb edir. Bu gün sırf uşaq problemləri sahəsində müxtəlif kadrların – sosioloq, hüquqşünas, psixoloq, tərbiyəçilərin yetişdirilməsinə ehtiyac duyulur. Peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədyönlü addımlardan biri sayıla bilər. Bunun daha çox erkən uşaqlıq dövrünə – məktəbəqədər və məktəb təhsilində tətbiq olunmasına xüsusi diqqət göstərilməlidir. Bir çox inkişaf etmiş ölkələrin təcrübələrində də göstərilmişdir ki, erkən uşaqlıq dövrünə qoyulan investisiya dövlətin gələcək inkişafına qoyulan investisiyalardandır.

Üçüncü fəslin **“Azərbaycanda dövlət uşaq siyasəti və milli inkişaf modeli”** adlı ikinci yarımfəslində Azərbaycanda uşaq hüquqlarının müdafiəsi məsələsində dövlətin rolu araşdırılır. Uşaq hüquqlarının müdafiəsi dövlət siyasətində beynəlxalq və dövlətdaxili normativ-hüquqi aktlarla aparılır. Beynəlxalq sənədlər özü də hər bir dövlətin siyasətinin konkret istiqamətlərinin müəyyənləşdirilməsini tələb edir. Belə olan halda beynəlxalq qanunlara uyğun olaraq, hər bir dövlət, o cümlədən Azərbaycan

da, uşaqların hüququ statusunu tənzimləyən milli qanunvericilik bazasını formalaşdırır və milli inkişaf siyasətini hüququ kontekstdə yürüdür.

Uşaq hüquqlarının qorunması sahəsində Azərbaycanda dövlət siyasətinin əsas istiqamətləri belədir: uşaqların hüquq və azadlıqlarının qorunması; onların sosial statusunun genişləndirilməsi; uşaqların keyfiyyətli təhsil alması; onların yaşamaq, azad fikir ifadə etmək, bərabərlik imkanlarının təmin edilməsi; dünya standartlarına cavab verən tibbi xidmətlərin həyata keçirilməsi; dövlət uşaq müəssisələrinin uşaqlar üçün ailə əsaslı sosial xidmət mərkəzlərinə çevrilməsi; uşaqların ailələrə verilməsi imkanlarının genişləndirilməsi; ailələrə verilmiş uşaqların sonrakı vəziyyətinə nəzarət edilməsi.

Bu yarımfəsildə qeyd olunur ki, uşaq problemlərinin həlli istiqamətindəki beynəlxalq təcrübə mütəmadi olaraq öyrənilir, xarici və yerli ekspertlərin təcrübəsindən də istifadə olunur. Uşaqlarla bağlı fəaliyyətin beynəlxalq standartlara uyğun həyata keçirilməsi məqsədilə müvafiq sahədə çalışanlara həm də vaxtaşırı təlimlər keçirilir. Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsü ilə Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi və digər müvafiq qurumların iştirakı ilə “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası” haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsinə dair Tədbirlər Planları hazırlanmış, bu sahədə olan çatışmazlıqların aradan qaldırılması yönündə də fəaliyyət gücləndirilmişdir. Həmçinin uşaq hüquqlarının müdafiəsi sahəsində Milli Fəaliyyət Planı da hazırlanmışdır. Burada uşaqların hüquqlarının, sağlamlığının qorunması, mənəvi-estetik tərbiyəsi, yaradıcılıq potensialının artırılması, istirahətinin təşkili və bir sıra strateji məsələlərin həlli istiqamətində fəaliyyətlər nəzərdə tutulmuşdur ki, bu da dövlətin uşaq siyasəti sahəsində önəmli fəaliyyətidir.

Bu yarımfəsildə uşaq problemlərinin həllinin müasir dövrdə ölkəmizin siyasi qərarlarında vacib əhəmiyyət daşıdığı araşdırılır. Həmçinin, bu yarımfəsildə “uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydası” təhlil edilir. Azərbaycanda dövlət uşaq siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 8 may tarixli fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydası” dövlət uşaq siyasəti istiqamətində mühüm rol oynayır. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, uşaq hüquqlarının pozulmasına

səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınmasıdır. Bu dövlət nəzarətini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası sahəsində Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanları yerinə yetirir.

Uşaq hüquqlarının müdafiəsi və təminatının yaxşılaşdırlıması üçün yetkinlik yaşına çatmayanların problemləri ilə məşğul olan dövlət orqanlarının bu istiqamətdə ictimai nəzarətin gücləndirilməsi, uşaq hüquqları sahəsində müstəqil ombudsman təsisatının yaradılması, mövcud təsisat çərçivəsində uşaq hüquqlarına xüsusi zəruri diqqətin ayrılması, yuvenal ədliyyə sisteminin formalaşması və daha da inkişaf etdirilməsi əhəmiyyətli addım hesab edilə bilər.

Dövlət uşaq siyasətini həyata keçirərkən, uşaqların cəmiyyətdəki vəziyyəti, onlara lazımi qayğı, onların həyat fəaliyyəti, təhsili, tərbiyəsi və inkişafı üçün əlverişli şəraitin yaradılması dövlətin sosial siyasətinin aparıcı faktoru və cəmiyyətin tərəqqisinin vacib amilidir. Uşaqlara investisiya nəinki ayrıca bir ölkənin, eləcə də regionun, bütövlükdə dünyanın uğurlu, sabit inkişafının möhkəm qarantıdır.

Tədqiqat işinin **Nəticə** hissəsində belə qənaətə gəlinir ki, uşaq məsələsi Azərbaycada yerli qanunvericilik və beynəlxalq konvensiyalarla əhatə olunan milli inkişaf modelinə malikdir. Bu inkişaf modelinin davamlı perspektivi üçün adekvat olaraq yeni mexanizmlərin araşdırılması, institutlaşmanın dərinləşməsi və bu istiqamətdə siyasi-nəzəri konseptual əsasların genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**

1. Siyasi lider və Heydər Əliyev fenomeni / AMEA Fəlsəfə, Sosiologiya və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu “Heydər Əliyev məktəbi” Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş ümumrespublika elmi-praktik konfransının materialları. Bakı: “Səda” 2008, 198-203 s.

2. Азербайджан в процессах международной интеграции. // Вопросы гуманитарных наук Москва, «Компания спутник +» İSSN 1684-2626, №3 (47) 2010, 290-292 с.
3. Milli özünüdərketmədə ideoloji aspektlər // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu "Elmi Əsərlər". Bakı: 2011, № 1 (16), 257-259 s.
4. Strateji inkişafın Azərbaycan yolu // "Siyasi bilimlər jurnalı Qafqaz bölməsi" İstanbul: 2011, №2, 287 s.
5. Digər mədəniyyətlərin Azərbaycan etiket mədəniyyətinə təsiri / Azərbaycan Respublikası Ailə, Qadın Və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. AMEA FSHİ "Politologiya və Siyasi Sosiologiya" şöbəsi. Müstəqil Azərbaycan 20 il. Dövlət Ailə, Qadın və Uşaq siyasəti. "Nurlar", 2012, 413-416 s.
6. Azərbaycanda uşaq hüquqları və beynəlxalq qanunvericilik / "Gənc alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası" "Yeni çağırışlar: Müasir şəraitdə elmi innovativ tədqiqat işlərinin təcrübi və tətbiqi əsasları" Gənc alimlərin elmi konfransının materialları. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu, 2012, 388-390 s.
7. Azərbaycanda uşaq siyasəti: istiqamətlər və reallıqlar // Geostrategiya. Aylıq ictimai-siyasi və elmi-populyar jurnal № 05 (11), Sentyabr-oktyabr 2012, 60-63 s.
8. Направления и реальности детской политики в Азербайджане // Гілея. Науковий вісник. Збірник наукових праць. Випуск 67 (№12), Київ, 2012, 769-772 с.
9. Child policy in Azerbaijan: directions and realities Abstracs collections on New Challenges in the European Area: International Baku Forum of Young Scientist Dedicated to the 90-th Anniversary of National Leader Heydar Aliyev. Ministry of Youth and Sport of the Republic of Azerbaijan, Azerbaijan National Academy of Sciences, Azerbaijan Young Scientists, Post-Graduates and Masters, The European Council of Doctoral Candidates and Junior Researchers, Young Scientist. 20-25 May, 2013, Baku, Azerbaijan, pp. 535-537.
10. Gender stereotipləri və onun uşağın inkişafına təsiri / "Gender problemi və müasir Azərbaycan" respublika elmi konfransının materialları. Azərbaycan Universiteti, Bakı, 2017, 146-150 s.
11. Müasir Azərbaycanda uşaq məsələləri və demokratik təsisatlar // AMEA Fəlsəfə İnstitutu, "Elmi Əsərlər" beynəlxalq elmi-nəzəri jurnal, № 1 (30), 2018.

12. Azərbaycanda uşaq hüquqlarının müdafiəsi və milli inkişaf siyasəti / Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu, Bakı, 2018, s. 222-230.

**Севиль Солтан гызы Алиева**

## Государственная политика в отношении детей в Азербайджане: институциональный механизм и международная практика

## РЕЗЮМЕ

Диссертационная работа посвящена детской политике в Азербайджане, исследованию и сравнительному анализу деятельности местных и международных институтов в этом направлении.

Диссертация состоит из трех глав, шести подразделов, заключения и списка литературы. Во «Введении» диссертации изучается актуальность темы, масштабы ее использования, предмет исследования, цели и задачи, научная новизна, теоретико-методологическая основа, ее научно-теоретическое и практическое значение.

В первой главе диссертации «Направления формирования детской проблемы: политическая точка зрения» с политико-правового аспекта анализируются основные направления отношений, сложившихся в связи с детьми. Социальные факторы, которые играют определенную роль в формировании и развитии детей в обществе, рассматриваются как неотъемлемая часть политико-культурной среды. Воспроизводятся подходы, сформированные исторически вокруг этой проблемы. Уделяется научно-теоретическое внимание факторам, значимым в отношении детей в Азербайджане.

Вторая глава диссертации называется «Всемирная система защиты детей: анализ национального и международного опыта». Здесь рассматриваются вопросы, вытекающие из ратификации международных конвенций, а также направления развития национального опыта, в то же время анализируются пути применения национального и международного законодательства в области защиты прав детей.

В третьей главе диссертации «Детская стратегия и институциональные структуры в современном Азербайджане» институциональными и системными методами анализируются существенные результаты проводимой в Азербайджане государственной детской политики в направлении предотвращения проблемы и перспективы взаимодеятельности социальных и государственных организаций, действующих в данном направлении. Исследуется значимость других мер, выполненных и которые будут предприняты в направлении решения проблемы.

В «Заключении» исследования приводятся основные научные выводы.

**Sevil Soltan Aliyeva**

## State Child Policy in Azerbaijan: institutional mechanism and international practice

## SUMMARY

The thesis was dedicated to the child policy in Azerbaijan and investigation and comparative analysis of activities of local and international institutions in this direction.

The thesis consists of three chapters, six subchapters, conclusion and list of references.

The "**Introduction**" part of the thesis studies the urgency of the topic, its extent of use, the object and subject of the investigation, its goals and objectives, scientific innovation, theoretical-methodological basis, its scientific-theoretical and practical importance.

The first chapter of the thesis called "**The directions of formation of child issue: political view**" analyzes the main directions of the relationships formed in connection with the children in terms of political-legal aspect. Social factors that play a role in the formation and development of children in the society are considered as an integral part of the political-cultural environment. The attitude is expressed towards the approach described around this problem historically. The factors that make sense about children's issues in Azerbaijan are scientifically-focused.

The second chapter of the thesis is called "**The world child protection system: analysis of national and international experience**". Here, the issues arising out from ratification of international conventions, also the development directions of national experience are investigated, at the same time, the ways of application of national and international legislation in protection of child rights are analyzed.

The third subchapter of the thesis called "**The child strategy and institutional organizations in modern Azerbaijan**" analyzes the significant results of state-child policy pursued in Azerbaijan in the direction of prevention of problem and the perspectives of mutual operation of social and state organizations acting in this dircetion through institutional and systemized methods. The importance of other issues done and to be done in the direction of settlement of the problem is investigated.

The part “**Conclusion**” of the investigation reflects the major scientific conclusions.

Sifariş № 24. Tirajı 100 nüsxə

Azərbaycan Milli Elmlər Akademiyası
Geologiya və Geofizika İnstitutunun mətbəəsi.

Bakı, H.Cavid pr. 119, Tel.: 539-39-72

**НАЦИОНАЛЬНАЯ АКАД Я НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУ .ЛОСОФИИ**

*На правах рукописи*

**СЕВИЛЬ СОЛТАН гызы АЛИЕВА**

# ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА В ОТНОШЕНИИ ДЕТЕЙ В АЗЕРБАЙДЖАНЕ: ИНСТИТУЦИОНАЛЬНЫЙ МЕХАНИЗМ И МЕЖДУНАРОДНАЯ ПРАКТИКА

Специальность: 5908.01 – Политическая теория

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по политологии

**БАКУ – 2018**